**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN BƏDİİ NƏSRİNDƏ İNSAN VƏ ZAMAN PROBLEMİ

İxtisas: 5716.01– Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Zalxa Etibar qızı Orucova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Elman Hilal oğlu Quliyev** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**İslam Eynəli oğlu Qəribov** |
| | filologiya elmləri doktoru, dosent<br>**Raqub Şahmar oğlu Kərimov** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Azər İmamverdi oğlu Əbilov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 - Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ____________ | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Zaman dəyişir, ədəbiyyat tarixində yeni cərəyan və istiqamətlər meydana çıxır və hər bir dövrün öz ədəbiyyatı yaranır. Buna müvafiq olaraq hər dövrün özünəməxsus qəhrəmanları olur, cəmiyyət, ictimai mühit obrazda təcəssümünü tapır, beləcə, şəxsiyyət və mühit qarşılıqlı şərtlənmədə, biri digərini tamamlayaraq, bədii tədqiq obyektinə çevrilir. Odur ki, bədii ədəbiyyatın ən universal, fundamental və həmişə aktual olan məsələlərindən biri insan və onu əhatə edən mühit, içində olduğu zaman problemidir.

İnsan və zaman probleminin bədii həlli vəziyyəti hər bir sənətkarın yaradıcılığında fərqli şəkildə reallaşır və bu fərqlər yazıçı sözünün və üslubunun həm özünəməxsusluğunu, həm də dəyərini müəyyənləşdirir. Bu cəhətdən müasir nəsrimizdə diqqəti cəlb edən sənətkarlardan biri Hüseynbala Mirələmovdur.

1960-cı illərdən başlayaraq, sovet rejimdə başlanan müəyyən yumşalmanın təsiri ilə insan və zaman amili xüsusi əhəmiyyət kəsb etməyə başladı. Müasir dövrün tələbinə uyğun yazıçılar qəhrəman və mühit probleminə yeni münasibətlə seçilən əsərlər yaratmağa başladılar. Bütün sovet ədəbiyyatında olduğu kimi, Azərbaycanın yeni nəsrində də ədəbi-estetik axar dəyişməyə, etik-estetik problemlər, milli-mənəvi dəyərlər şəxsiyyətin əsas keyfiyyəti, hətta göstəricisi kimi önə çıxmağa başladı. Bu meyil və keyfiyyət dəyişikliyi yazıçı Hüseynbala Mirələmovun yaradıcılığında özünəməxsus bir şəkildə təzahür etdi. O, sadə və saf insanların taleyini, onların sosial mühitdə varlıq mücadilələrini, cəmiyyətdə gedən proseslərə ayıq baxışını orijinal üslubda qələmə almaqla mənəvi-psixoloji aləmlərini birbaşa təsvir predmetinə çevirə bildi. Yazıçı öz əsərlərində ilk baxışdan adi, o qədər də mühüm sayılmayan məsələləri sərgiləsə də, insanın düşdüyü ictimai-siyasi mühitdə yaşamı və taleyi problemini ümumbəşəri əxlaq və mənəviyyat problemi səviyyəsinə qaldırmağa müvəffəq oldu. Çünki Hüseynbala Mirələmovun nəsrində qəhrəmanlar ilk növbədə öz ağlı, cəsarəti ilə zəmanəsinə qarşı müqavimət göstərmək əzmi, yaxud onunla mücadilə aparmadan içinə qısılıb mənəvi dünyalarına, vicdanlarına sığınmaq keyfiyyəti ilə yadda qalırlar. Bu qəhrəmanlar mühitin

eybəcərliklərini açmaq üçün fikri mühakimələr yürüdür, sovet dövrünün neqativ cəhətlərini, xarakterik xüsusiyyətlərini dialoqlarında, əsasən də daxili monoloqlarında əks etdirməyə çalışırlar. Odur ki, yazıçının təsvir etdiyi adiliyin alt qatında dərin psixologizm, kinayəsinin altında isə mətnaltı kədər ehtiva olunur və o, insandan, fərddən cəmiyyətə keçid vasitəsilə antihumanist mühitin eybəcərliklərini açmağa, bütünlükdə sosializm sisteminin yararsızlığını göstərməyə müvəffəq olur.

Mövzunun aktuallığı sadəcə 60-cı illərin yeni ədəbi nəsli və nəsri qavramağıyla məhdudlaşmır, həm də həmin nəslin nümayəndələrindən olan Hüseynbala Mirələmovun yaradıcılığındakı insan və zaman amilinin işləkliyi fonunda qəhrəman və mühit konsepsiyasını araşdırmaq, bu konteksdə yazıçının zaman-zaman qaldırdığı ədəbi – estetik problemləri konkretləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

90-cı illərdə Sovet İttifaqının süqutu, bu ittifaqa daxil olan respublikaların, o cümlədən, Azərbaycanın müstəqillik əldə etməsi milli ədəbiyyatımız tarixində həm məzmun, həm də forma baxımından əvvəlki onilliklərdən tamamilə fərqli yeni bir mərhələnin başlanmasını şərtləndirdi. Eyni zamanda, Azərbaycan xalqı elə həmin illərdə təcavüzə məruz qaldı. Müharibənin doğurduğu kəskin sosial – siyasi problemlər, ölümlü–itimli günlərin fövqəl yaşantısı milli şüura və bədii düşüncəyə ciddi təsir göstərdi və nəticədə Qarabağ münaqişəsi ədəbiyyatımızın aparıcı mövzusuna çevrilməklə onun ideya-məzmun məndəricəsinin zənginləşməsində, janr və problematika təkamülündə başlıca faktor rolunu oynadı. Dövrünün bir çox şair və ədibləri kimi, Hüseynbala Mirələmov da müharibə dövrü həqiqətlərini əks etdirir, Qarabağ dərdini yaradıcılığının əsas mövzu – probleminə çevirməklə baş verən qanlı hadisələri təcəssüm etdirməyə, bədii sözün gücü ilə insanları vətənin müdafiəsi uğrunda mübarizəyə səfərlər etməyə çalışmışdır. Bəzi əsərlərində də yazıçı dövrün, mühitin səciyyəvi xüsusiyyətlərini öz qəhrəmanlarının mənəvi yaşantısında ümumiləşdirmiş, baş verən hadisə və prosesləri bir-birindən ayrılmayan tərəflər kimi təqdim etmişdir. Mövzunun aktuallığı həm də bu baxımdan – yaxın tarix və ədəbiyyat problemini araşdırmaq nöqteyi-nəzərindən əhəmiyyət daşıyır.

**Tədqiqatın obyekti və predmeti.** Hüseynbala Mirələmovun hekayə, povest, romanları o cümlədən bir sıra publisistik yazılarında insan və zaman problemi ilə bağlı müxtəlif xarakterli materialları tədqiqatın obyektini təşkil edir. Müasir Azərbaycan bədii nəsrində və H.Mirələmovun bədii yaradıcılığında insan və zaman kontekstinin ədəbi-nəzəri problemləri daxilində araşdırılması işin predmetinə aiddir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi 60-cı illərdən bu yana nəsrimizdəki insan və zaman kateqoriyasının ədəbi-estetik problem kimi H.Mirələmov yaradıcılığı əsasında tədqiq etməkdən, onun həmin problemlə əlaqəli yaradıcılıq konsepsiyasını üzə çıxarmaqdan ibarətdir. H.Mirələmov yaradıcılığını yeni nəsrin ehtiva etdiyi problemlər işığında öyrənmək, həmçinin yazıçının 90-cı illərdən günümüzədək davam edən yaradıcılığının hərtərəfli təhlili də bu işin məqsədləri sırasındadır. Bununla əlaqədar olaraq, H.Mirələmovun müstəqilliyə qədər və ondan sonrakı dövrü yaradıcılığı tədqiqata cəlb edilmişdir.

Dissertasiyada qoyulan məqsədə müvafiq olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

– insan və zaman probleminin yazıçılarımızın qaldırdığı əsas problemlərdən biri kimi araşdırılması, H.Mirələmov əsərlərinin bu kontekstdə təhlili;

– insan və zaman əlaqələrinin qarşılıqlı təsir nəticəsində formalaşmasının − ictimai mühitin qəhrəmana təsirinin, qəhrəmanın mühitə münasibətinin araşdırılması;

– H.Mirələmov əsərlərindəki qaldırılan sosial, mənəvi-əxlaqi məsələlərin prinsiplərinin araşdırılması;

– H.Mirələmov əsərlərindəki mühitə uyğunlaşa bilməyən, ona qarşı etirazını bildirən qəhrəmanların psixoloji vəziyyətini, onların məhv olma səbəblərini araşdırmaq; yazıçının belə qəhrəmanlar yaratmaqla insan və zaman probleminə yeni rakursdan baxdığını əsaslandırmaq;

– H.Mirələmovun yaradıcılığındakı insanların ailə məişət mühitindəki yerini və rolunu müəyyən etmək;

– Bu insanların çağdaş sosial-siyasi həyatdakı səciyyəsini üzə çıxarmaq;

– H.Mirələmov nəsrini tarixi-siyasi mühit və qəhrəman problemi

kontekstindən araşdırmağa cəlb edib ondakı müasir epoxanın inkişaf qanunauyğunluğunu üzə çıxartmağa qadir çalarların elmi səciyyəsini vermək;

– H.Mirələmov yaradıcılığındakı konflikt və qəhrəman tipologiyasını üzə çıxarmaq; bu sahədəki imkanlarını gerçək həyat hadisələri ilə əlaqəli surətdə araşdırmaq və bu vasitənin mühitin və qəhrəmanın xarakterini açmaq ideya-məqsədinə yönəldiyini öyrənmək;

– 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində insan və zaman probleminin yeni məna qazanmasının yazıçının həmin dövrdə yazdığı əsərlərdə bədii təsdiqini öyrənmək və bu zaman "yeni dəyərlər, müstəqillik dövrünün qəhrəmanı necə olmalıdır" − kimi suallara cavab axtarmaq;

– H.Mirələmovun 90-cı illərdən sonrakı yaradıcılığınını onun ədəbi irsinin ikinci mühüm mərhələsi kimi tədqiq etmək;

– Erməni qəsbkarlarının Azərbaycanda törətdiyi qanlı hadisələr və xalq həyəcanının get – gedə dərinləşməsi meylini H.Mirələmovun hekayə, povest və romanlarında üzə çıxarmaq;

– H.Mirələmovun Qarabağ münaqişəsi, torpaqlarımızın erməni separatçı quldurlar tərəfindən işğalı, şəhidlik, qaçqınlıq problemlərinə yazıçı münasibətini araşdırmaq, bu məqsədlə yaratdığı obrazların əzablı yaşantı və iztirablarını təsvir ustalığını dəyərləndirmək;

– İnsan və təbiət, insan və cəmiyyət, əxlaqi – mənəvi dəyərlərin geriləməsini, mənəvi aşınmanın qlobal səciyyədə təhlükəyə çevrilmə faktı kimi məsələlərin bədii həllini yazıçının meydana qoyduğu əsərlər əsasında səciyyələndirmək və s.

**Tədqiqatın metodları.** Tədqiqat prosesində Azərbaycan ədəbiyyatşünaslığının təcrübə və uğurlarından sistemli şəkildə istifadə olunmuş, tarixi–müqayisəli, ədəbi–estetik və analitik metod, çağdaş elmi–nəzəri təhlil üsulu tədqiqatın metodoloji bazasını təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

– Çağdaş Azərbaycan bədii nəsrinin inkişafında H.Mirələmovun özünəməxsus xidmətləri olmuşdur.

– H.Mirələmov yaradıcılığında insan və zaman kateqoriyalarının müəyyən edilməsi ədəbiyyatşünaslığımızın əhəmiyyətli problemlərindən biridir.

– H.Mirələmovun qəhrəmanları özünəməxsus fərdi

xüsusiyyətləri ilə seçilən obrazlardır. Qəhrəmanların ictimai mühitdə yeri və bu mühitə təsiri məsələlərinin təhlili.

– H.Mirələmovun hekayələrində yaşadığımız dövrün bədii gerçəkliklərinin təcəssümünün təhlili məsələləri.

– H.Mirələmov qəhrəmanlarının bədii özünüdərk kontekstində araşdırılma məsələləri.

– H.Mirələmov qəhrəmanlarının xarakterinin müharibə və insan, təbiət və insan, məişət və insan problemləri daxilində açılması.

– H.Mirələmov yaradıcılığında tarixi yaddaş məsələsinin milli tale dəyərləri müstəvisində izah olunması.

– H.Mirələmov yaradıcılığı tarixilik və müasirliyin vəhdəti prinsipləri daxilində təhlili.

– H.Mirələmov yaradıcılığında ictimai mühit, şəxsiyyət və xarakter məsələlərinin üzə çıxarılması.

**Tədqiqatın elmi yeniliyi.** Nəsrin ən başlıca problemlərindən biri olan şəxsiyyət məsələsinin, insana dəyər verilməsinin məhz insan və zaman konsepsiyası baxımından tədqiq edilməsi dissertasiyanın elmi yeniliyini şərtləndirən vacib məsələlərdən biridir. Hüseynbala Mirələmovun hekayə, povest və romanlarında təqdim edilən obraz və hadisələr qəhrəmanların xarakterini açmaq üçün istifadə olunan dialoqlar, daxili monoloqlar, metaforik qatlar, cansız əşyaları danışdırmaq, təbiət və cəmiyyət hadisələrinin mənalandırılmasındakı dərinlik tipində tədqiqata cəlb edilmişdir.

H.Mirələmovun həm sovet dövrü, həm müstəqillik əldə etdikdən sonrakı dövrlərdə yaradıcılığını iki bir–birini tamamlayan bütöv mərhələ kimi araşdırılmasını tədqiqatın elmi yeniliklərindən biri hesab etmək olar. Yazıçının qoyduğu problemlərin mahiyyətində konkrert məkan təsviri yaratmaq, sadə adamların ağrılı yaşamını, fərdi talelərdəki uğursuzluqlarını təsvir vasitəsilə ifadə etmək bacarığı, insanın müharibə, məişət və təbiətlə münasibətdə yaşadığı gərginlikləri göstərmək dayanır ki, bu məsələlərin təhlili ilə bağlı əldə edilən qənaətlər də elmi yenilik sayıla bilər.

Habelə yazıçının milli bütövlüyümüzün üzə çıxarılması, milli statusumuzun bərpası naminə tarixə müraciətlə yazdığı əsərlərin tədqiqi, tarixi yeni rakursdan mənalandırma cəhdi və bununla bağlı

əldə edilən nəticələr də dissertasiyanın elmi yeniliyindən xəbər verir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən ümumilikdə yeni Azərbaycan nəsrinin təşəkkülü və inkişafı istiqamətlərini araşdırmaq işində geniş istifadə edilə bilər. Bundan başqa, dissertasiyadan 60-cı illər Azərbaycan nəsrinin əsas mövzu və ideya, insan və zaman amili, qəhrəman və mühit məsələlərinin öyrənilməsində, müasir ədəbi prosesin spesifik problemlərinin elmi – nəzəri və praktik həllində istifadə etmək olar. Yeni nəsrin nümayəndələrinin ədəbiyyatımıza gətirdiyi yenilikləri, insana münasibətdə yazıçı mövqeyini öyrənmək üçün bu tədqiqat işindən yararlanmaq mümkündür. Müstəqillik dövrü Azərbaycan nəsrində gedən dəyişikliklər, yeni qəhrəman konsepsiyası, irəli sürülən ideyalar, nəsrimizin mövzu və ifadə forması baxımından, məzmun–mündəricə cəhətdən hansı dəyişikliklərə məruz qalması kimi məsələləri öyrənmək baxımından dissertasiya dəyərli mənbə rolunu oynayır. Dissertasiyada irəli sürülən müddəa və qənaətlərdən dərsliklərin və dərs vəsaitlərinin yazılmasında da istifadə etmək olar. Praktik olaraq, bu işdən tələbələrin, müəllimlərin və ümumiyyətlə, oxucuların faydalanması da mümkündür.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Müdafiəyə təqdim edilən dissertasiya işinin əsas müddəaları və nəticələrinin ayrı–ayrı fəsilləri müxtəlif vaxtlarda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasının iclas və seminarlarında müzakirə olunub yerinə yetirilmişdir. Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri müəllifin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi elmi jurnallarda və məcmuələrdə, xarici ölkələrin nüfuzlu jurnallarında, eləcə də çıxış və məruzələrin çap edildiyi konfrans materialında öz əksini tapıb.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və işin həcmi**. Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya Giriş – 13971 işarə, üç fəsil (birinci fəsil –

87 125 şərti işarə, ikinci fəsil – 64 688 şərti işarə, üçüncü fəsil – 61124 şərti işarə), Nəticə – 8708 şərti işarə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın ümumi həcmi – 235616 şərti işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun tədqiq olunma səviyyəsi araşdırılır, işin obyekti və elmi qaynaqları müəyyənləşdirilir. Eyni zamanda, burada dissertasiya işinin əsas məqsədi, həmin məqsədə çatmaq üçün qarşıya qoyulan vəzifələr müəyyən edilir, araşdırmanın nəzəri-metodoloji əsasları açıqlanır, işin elmi yeniliyi, praktik əhəmiyyəti əsaslandırılır, strukturu barədə yığcam məlumat verilir.

Birinci fəsil **"Hüseynbala Mirələmovun ədəbi axtarışlarında İnsan və Zaman probleminin bədii dərki"** adlanır. İki paraqrafdan təşkil olunub. Birinci paraqraf **"Zaman və İnsan probleminin XX əsr nəsrinin inkişaf qanunauyğunluğu"** adlanır. Bildiyimiz kimi bədii sənətdə İnsan və Zaman problemi ədəbiyyatı daim məşğul edən məsələlərdəndir. Bütün dövrlərdə ədəbiyyatın və sənətin qarşısında məhz, qəhrəmanların zamana uyğun biçimdə bədii əsərlərə gətirilməsi, onlarda zamanın hərəkət ritminin duyulması kimi məsələlər önəmli sayılmışdır.

Akad. Nərgiz Paşayeva "İnsan bədii tədqiq obyekti kimi" adlı monoqrafiyasında yazır: *"Çox mürəkkəb və dramatik dövr olan XX əsrdə də sənətdə insanın bədii-estetik dərki problemi müxtəlifliyi ilə diqqəti cəlb edir. Təsəvvür etmək yox, sadəcə elmi müşahidələr və araşdırmalar kifayət edir ki, bu müxtəlifliyi görək."*[1]

Ədəbiyyat müxtəlif insan simalarını özündə cəmləşdirən bir qalereyadır. Burada onun müxtəlif, rəngarəng obrazları var: mərhəmətli, zalım, güclü, zəif, mübariz, məzlum, ağıllı, dəli və s. Onlar zamanlara uyğun olaraq dəyişir, formalaşırlar.

Akad. Nizami Cəfərov *"Azərbaycanşünaslığa giriş" kitabında ədəbiyyatımızın keçdiyi inkişaf yolunun özünəməxsus cəhətlərini*

---

[1] Paşayeva, N. İnsan bədii tədqiq obyekti kimi / N.Paşayeva. – Bakı: XXI-YNE, – 2003. – s. 7.

*vurğulayarkən, qədim ədəbiyyatı əsasən epos, Orta əsrlər dövrünü isə lirika dövrü kimi səciyyələndirir. Dövrlərin əsas, prioritet qəhrəman tipinə gəldikdə isə Nizami Cəfərov birinci dövrün epos qəhrəmanını dünyada qərar tutan, "seçilmiş", qüdrətli Şəxsiyyət, Qəhrəman kimi, ikinci dövrün qəhrəmanını isə "dünyadan təcrid olunaraq yalnız öz daxilində harmoniya yaratmağa çalışan İnsan" timsalında xarakterizə olunduğunu bildirirdi."* [2]

Azərbaycan nəsri çox qədim köklərə malikdir. Epik növün əsas janrlarından olan hekayənin Azərbaycan ədəbiyyatında yeri bu qədimliklə bağlıdır. Lakin nəsrlə yazılan əsərlərin, müasir ədəbiyyatda çevik və aparıcı mövqeyə malik olan sahənin tarixi inkişaf yolu heç də birbaşa, düzxətli olmamış, müxtəlif dövrlərdə müxtəlif şəkillərdə təzahür etmişdir. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərinə daxil olan hekayələrdən başlayaraq, XIX əsrdə A.Bakıxanovun yaradıcılığına qədər epik-didaktik hekayəçilik bütünlükdə Orta əsrlərdə bu ənənələr daxilində davam etmişdir. Bununla belə, XIX əsrin ikinci yarısından, M.F.Axundzadənin Azərbaycan ədəbiyyatında yeni tipli nəsr əsəri - "Aldanmış kəvakib" əsəri ilə milli nəsr nəzərə çarpacaq qədər inkişaf etdi. XX əsrin əvvələrindən başlayaraq nəsr, xüsusən də hekayə janrı ədəbiyyatımızda ön mövqelərə çıxdı. Cəlil Məmmədquluzadənin realist nəsr yaradıcılığı, "Molla Nəsrəddin" jurnalının nəşri buna böyük təkan verdi. Azərbaycan nəsrinin ilk parlaq mərhələsi məhz, realist hekayənin yaranması ilə səciyyəvidir.

90-cı illərin əvvələrində insanın təsviri aydın, təfərrüatlı ehtiva olunur. Yazıçı Hüseynbala Mirələmovun da yaradıcılığı daha çox bu çətinliklər içərisində ərsəyə gələn, zamanının reallıqlarını, problemlərini əhatə etməyi başlıca məqsədə çevirən əsərlərin nümunəsini verir.

H.Mirələmov hələ ilk hekayələrini yazdığı 60-cı illərdə insanı əsərin mərkəzinə qoyub onların həyat tərzi ilə bağlı, kiçik detalların da böyük mənalar daşıya biləcəyini göstərir: insan ləyaqəti, ədalət, yaxşılıq, nəciblik, namus, mərdlik, kişilik, həyat, ölüm və s. haqqındakı baxış və düşüncələrini qəhrəmanlarının dili ilə

---

[2] Cəfərov, N. Azərbaycanşünaslığa giriş / N. Cəfərov. – Bakı: Az Ata M, – 2002. – s. 30.

səsləndirib onların hərəkətləri və hadisələrə münasibətləri fonunda təqdim edirdi.

İkinci paraqraf **“Hüseynbala Mirələmovun hekayələri XX əsr gerçəklərinin bədii təcəssümü kimi”** adlanır. Bildiyimiz kimi 1990-cı illərdən başlayaraq, ölkədə və dünyada baş verən siyasi-ictimai hadisələr, Avropaya inteqrasiya məsələləri, Şərq–Qərb problemi, dünya kontekstində insanla bağlı səsləndirilən həyəcan siqnalı günün aktuallıqlarını özü ilə gətirmiş və bu mövzulardan qaynaqlanaraq yaranan bədii əsərlər ötən əsr ərzində daha böyük yaradıcılıq enerjisi ilə meydana çıxırdı. Bütün dünyada baş verən prosesləri həssaslıqla izləmək nəsrimiz üçün səciyyəvi olan bir haldır və ictimai–siyasi həqiqətləri, mənəvi təbəddülatları, həyatın ziddiyyətlərini, milli kökə qayıdış və torpaq, Vətən ideyasını, türkçülük, islamçılıq motivlərini, yüksək əxlaqi dəyərləri bədii həqiqətə çevirmək cəhətdən müasir nəsrin, xüsusən, Hüseynbala Mirələmov yaradıcılığının  geniş oxucu kütləsinə təsir dairəsini etiraf etməmək mümkün deyil. Hüseynbala Mirələmovun nəsri daha çox XX əsr ziddiyyətlərini özündə ehtiva edir.

Bu fikirlərin şərhinə keçməzdən öncə yazıçı haqda akademik İsa Həbibbəylinin yazdığı qeydləri vurğulmağım yerinə düşər: *“O, hansı mövzuda yazırsa–yazsın, cəmiyyət miqyasında düşünən, həyat materialını cəlbedici ədəbiyyat mətninə çevirməyi bacaran, son nəticədə vətəndaş–publisist sözünü ən müxtəlif tərzdə deməyi ilə fərdiləşən sistemli bir yazıçıdır.”*[3]

Hüseynbala Mirələmovun nəsr yaradıcılığında insanın mənəvi aləminin çırpıntıları, fəlakət və müsibətləri, bəzən isə qəlb dünyasının bəsitliyi daha çox psixoloji  səciyyə  daşıması  ilə diqqəti cəlb edir. Bu fikirləri birmənalı şəkildə ədibin bütün mövzuda yazdığı əsərlərinə şamil etmək olar. Müəllif tarixdən bəhs edib onun ziddiyyətli bir dövrünü bədii təcəssümün predmetinə çevirəndə də, müharibə gerçəklərinə baş vurub onun fəsadlarını çağdaş nəsrə gətirəndə də, yaxud ailə-məişət problemlərini qabardanda da başlıca olaraq, insanın zamanda yeri ideyasına xidmət etmiş olur.

Hüseynbala Mirələmovun insanı yaşamaq, insanın ağrılarına

---

[3] Cəfərov, N. Hüseynbala Mirələmovun yaradıcılığı, yaxud ədəbi tərcümeyi-halı / N.Cəfərov. – Bakı: – 2014. – s. 3.

enmək cəhdini onun ilk qələm təcrübəsindən hiss edirik. Yazıçının 1961-ci ildə Lənkəranda çıxan "Leninçi" qəzetində dərc olunan "Bir tikə çörək" hekayəsindən başlayaraq sonrakı illərdə yazdığı – "Tənha durna uçuşu", "Ulduza doğru", "Dəyirmana gedən yol", "Sonuncu tikə", "İzlər", "Qara xal", "Qasırğa tez keçdi", "Son arzu" və s. kimi hekayələrində dərin insan kədəri, ağrısı, cəmiyyət oyunları ilə zidd davranışı diqqət mərkəzindədir. Akad. Nizami Cəfərov bunu yazıçının ilk qələm təcrübəsinin qaynağı olan 60-cı illər nəsrinin ümumi inkişaf qanunauyğunluğuna bağlayır: *"Hüseynbala Mirələmovun nəsri müasir Azərbaycan ədəbiyyatının həm 60-70-ci illər, həm də bugünkü durumu ilə çox sıx bağlıdır. Əgər belə demək mümkünsə, o da şərti olaraq işlədilən "yeni Azərbaycan nəsri"nin sırasındadır, yəni onun nəsr əsərləri də "altmışıncılar"ın yaratdıqları əsərlərin kontekstində qiymətləndirilməlidir."*[4]

Hekayələrdə H.Mirələmov müasir kənd mənzərələrini əlvan boyalarla canlandırır, kənd həsrətini, koloritini, yaşamını inandırıcı şəkildə təsvir edirdi.

H.Mirələmovun da hekayələrində kənd başlanğıcı əksər qəhrəmanların içində daim oyaq, daim diri görünür, mənəvi təmizlik qaynağı kimi mənalanır. "Qayada çiçək", "Əclaf", "İzlər", "Meşədə tənha ev", "Qartal" və s. hekayələrdə saf duyğuların qanad çalan uçuşunu sezə bilirik, bu duyğular insandakı təmiz hisslərin zamanla əbədi yoldaşlığına bizi daha çox inandırır.

Bütün dünyada baş verən prosesləri həssaslıqla izləmək nəsrimiz üçün də səciyyəvi olan bir haldır və ictimai-siyasi həqiqətləri, həyatın ziddiyyətlərini, milli kökə qayıdış, Vətən ideyasını, türkçülük, islamçılıq motivlərini, yüksək əxlaqi dəyərləri bədii həqiqətə çevirmək cəhətdən müasir nəsrin, xüsusən, H.Mirələmov yaradıcılığının geniş oxucu kütləsinə təsir dairəsini etiraf etməmək mümkün deyil.

H.Mirələmovun müharibə amilinə münasibəti insan və onun faciəsi proseslər burulğanında cəhd göstərmək baxımından əhəmiyyətli səciyyə daşıyır. Bu təsvirlərdə müharibənin bütün üzlərini, bütün

---

[4] Cəfərov, N. Seçilmiş əsərləri: [V cild] / N.Cəfərov. – Bakı: Elm, – c.5. – 2007. – s. 14.

ağrılarını görmək olur.

"Qara xal" qəmli bir ürəyin hekayəti, xeyirin şərlə mübarizəsi, nəhayət, xeyirin şər üzərindəki təntənəsinin bədii təcəssümüdür. Hekayənin qəhrəmanı doktor Ümid Bədirov cərrahdır. Böyük Vətən müharibəsinə getməmişdən az öncə Nahidə ilə ailə qurmuş, müharibə bitdikdən sonra vətənə qayıdanda arvadının onun ocağını tərk edərək başqa birisinə qoşulub getdiyini eşitmişdir. Sarsılsa da, həyat onu sındıra bilməmişdir. Aradan illər keçdikdən sonra Nahidə saçları ağarmış, əvvəlki gözəlliyini itirmiş, ölümcül vəziyyətdə Ümidin qarşısına çıxsa da, ürəyindəki mərhəmət hissi şərə qalib gəlir, "Vəfasız Nahidəni yox, xəstə Nahidəni sağaldacağam", - deyə əməliyyata başlayır. Uğurla keçən əməliyyatdan sonra isə onun qulaqlarında bir səs guruldayır: *"Bir ovuc sərvət, bir qarış torpaq üçün qanlı müharibələr törədən ağalara ölüm, ölüm, ancaq ölüm!..."*[5]

Hekayədə müəllif maraqlı bir ədəbi priyom seçir. Müharibənin acılarını göstərmək üçün cəbhə bölgəsini, qızğın döyüş meydanını təsvir etməyə ehtiyac duymur. Müharibənin fəsadlarını darmadağın olmuş talelərdən, ocağı sönmüş ailələrdən, atasız qalmış uşaqların gözlərindən, quşu uçmuş budaqlardan, xəyanətə uğramış ürəklərin halından da görüb bilmək yetərlidir. Ümidin ailə faciəsinin əsas səbəbi müharibədir, onun çətinlikləri, ağrı–acılarıdı. H.Mirələmovun qənaəti bundan ibarətdir ki, Ümidin qarşısında Nahidənin vəfasızlığından çox, müharibə günahkardır.

Bu paraqrafda H.Mirələmovun yaradıcılığı üçün xarakterik olan cəhət insanın hissləri, onun zamanda, cəmiyyətdə yeri ideyası,Vətən, torpaq, millət təəssübkeşliyi müharibənin acıları, darmadağın olmuş talelər və s. mövzuları əhatə edən hekayələri geniş təhlil olunur.

Tədqiqat işinin ikinci fəsli **"Yeni dövr insanı bədii özünüdərkin sınaqlarında"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf **"Keçid dövrünün fəlsəfi-dramatik dərki: müharibə və insan"** adlanır. Belə ki, 1990-cı illər tarixi yaddaşımıza müharibə illəri kimi daxil oldu. Milli müstəqillik qazandıqdan sonra Azərbaycan bir dövlət olaraq müxtəlif çətinliklərlə üzləşdi. Bir tərəfdən, 80-ci illərin sonlarından başlayaraq, erməni məkrinin qurbanı olmuş torpaqlarımız

---

[5] Mirələmov, H. Tənha durna uçuşu. Hekayələr / H.Mirələmov. – Bakı: Gənclik, – 1986. – s. 34.

uğrunda dava və burdan irəli gələn çətinliklər, digər tərəfdən, ümumən dünyada baş verən xaotik proseslərlə bağlı yaşanan gərginliklər, eləcə də dağılan sovet imperiyasının neqativlərini, boşluqlarını dəf etmək, onları milli bədii-estetik dəyərlərlə əvəzləmək cəhdi ilə yeni dönəmə bu kimi çeşidli problemlərin içindən keçib daxil olurdu. Leslie Fiedler postmodern ədəbiyyatın nəzəri–metodoloji problemləri ilə bağlı fundamental məqaləsində belə bir fikir səsləndirir: *"Xəndəkləri keçin və boşluqları doldurun."*[6]

Bu dövr ədəbiyyatının başlıca mövzusu müharibə oldu. Qəhrəmanlar, mövzular, zaman və məkan çevrəsi dəyişdi. Şəhid obrazı ədəbiyyatın başlıca obrazı kimi gerçəkləşdi. Müharibə insanının acıları, vurduğu yaralar daha qabarıq şəkildə bədii təcəssümün predmetinə çevrildi. Yazıçı Hüseynbala Mirələmov da birbaşa bu mövzunu hədəfə alaraq daha çox zamanın dərdlərindən, ağrılarından yazmağı lazım bildi. Amma başlıca predmet insanın ağrılarına enmək, onun yaşantılarını bədii mətnə gətirmək oldu.

Azərbaycan xalqının ən ağrılı tarixi gerçəkliyi kimi yaşanan Xocalı faciəsinə həsr olunmuş "Xəcalət" povesti təkcə müəllifin deyil, ümumiyyətlə son dövr ədəbiyyatımızın uğurlarından biri sayılır. "Xəcalətli günümüzün güzgüsü", "Tarixi faciələrimizin elegiyası", "Nəsrin poeziyası", "Göz dağı", "Ruhumuzu oyadan əsər", "Ən ağır dərdimiz" və s. məqalələrdə əsərin mahiyyəti, məzmun və ideya xüsusiyyətləri barədə fikir irəli sürən müəlliflər bu əsəri Qarabağ məsələsinə həsr olunmuş gözəl əsərlərdən biri kimi xarakterizə etmişlər. Hətta əsər çap olunan kimi xalq şairi Bəxtiyar Vahabzadə hadisələrin təsviri və olanlar baxımından kitabı axıra qədər oxuya bilmədiyini və göz yaşları axıtdığını xüsusi olaraq vurğulayır.

"Xəcalət" povestində, bir millətin və eyni zamanda cəsarətlə demək olar ki, dünyamızın faciəsi ürək ağrısı ilə qələmə alınmışdır. Əsərdəki bədii obrazlar – Vətən, Didar, Qəmxar, Fərqanə, Murad, Ötərxan, Qönçə xala və s. kimi surətlər əsl xalq mücahidləri, qeyrətli, namuslu, sadə, lakin qürurlu qəhrəmanlar kimi göstərilmişdir. Povestin Heydər Əliyevlə bağlı kiçik epizodları yaddaqalan cizgilərlə verilmişdir.

---

[6] Fiedler, L. Cross the Border-Close the Gap // – Stein & Day Pub, – June, 1972. –p. 86.

“Xəcalət” povestində ibrətamiz hadisələr, bədii epizodlar yetərincədir. Bunların hər birində gəncliyə, döyüşən orduya, fəhləyə, kəndliyə – bir sözlə, xalqa çox faydalı ola biləcək əsl yazıçı-vətəndaş sözü öz bədii ifadəsini tapmışdır və bir ailənin başına gələnlərin təsviri ilə başlanan əsərdə hadisələr şəxsi mənafe müstəvisindən uzaqlaşdırılaraq ümümxalq mənafeyi müstəvisinə keçirilmişdir.

Əsərin ən canlı obrazlarından biri Vətəndir və hadisələrin mərkəzində ümumiləşdirilmiş obraz kimi dayanır. O, əsər boyu müxtəlif vəziyyətlərdə təsvir olunur, hadisələrin bir çoxu onun dilindən nağıl edilir və bu obraz bir növ əsərdə bələdçi rolunu oynayır.

Bir şəxsin və onun ailəsinin timsalında bütöv Qarabağın, Azərbaycanın taleyi müəllif tərəfindən çox inandırıcı bədii lövhələrdə açılıb göstərilir. Povestdə qəhrəmanın babası, atası, anası və arvad–uşaqları ilə keçirdiyi sarsıntılı anlar, meşədə baş verən hadisələr, qəddarlıqla öldürülənlər, vəhşicəsinə döyülənlər, oğul və qızların valideynlərindən uzaq düşmələri, ac qalmaları, qurd–quzğunla üzləşmələri inandırıcı detallarla, böyük ürək ağrısı ilə təsvir edilmişdir. Yazıçı bununla belə bir məntiqi fikir aşılayır ki, xalqımızın tarixindən uzun illər keçəndən sonra da tarix təkrarlanır. Tənqidçi V.Yusifli və şair-jurnalist Əli Mahmud əsərlə bağlı yazır ki, *“Xəcalət” doğma yurdu, Qarabağı qoruya bilməmək Xəcalətidir. Bu, doğma ananın, minlərlə şəhid ruhları qarşısında çəkilən Xəcalətdir. Bu, həm də övladlarının törətdikləri cinayətlərə görə gələcəkdə bəşəriyyət qarşısında cavab tapa bilməyəcək erməni xalqının Xəcalətidir…”*[7]

Torpaqlarımızın mənfur düşmən tapdağı altında olması, yurddaşlarımızın didərgin düşməsi, çətinliklər, düşmənin qəddarlığı və kəmfürsətliyi və başqa nüanslar bu paraqrafda araşdırılmışdır.

İkinci fəslin ikinci paraqrafı **“Müasir insanın urbanizasiya mühitində taleyi: təbiət və insan”** adlanır.

Belə ki, ədibin 2005-ci ildə qələmə aldığı və 2007-ci ildə ayrıca kitab kimi nəşr etdirdiyi “Cəza” povesti müəllifin sənət düşüncələrinin məntiqi nəticəsidir. Povest ətraf mühitimizə, ekologiya və mənəviyyatımıza, təbiət və insan problemlərinə həsr edilmiş aktual əsərlərdən biridir. Povestlə bağlı Etibar Əbilov yazır ki, *“Cəza” povesti*

[7] Yusifli, V. Həyatın ritmi/ V.Yusifli. – Bakı: Azərbaycan, – 2003. – s. 60-61.

*mənim fikrimcə, Azərbaycan ədəbiyyatında bənzərsiz bir əsərdir. Ədəbiyyatımızda istər janr, istərsə də mövzu baxımından bir yenilikdir."*[8]

Əsər insanları mənəvi saflığa, haqq–ədaləti qorumağa, var–dövlət düşkünü olmamağa, cəhalətə uymamağa çağırır. Tanrının yaratdığı bütün canlıları sevməyə, rəhmdil, alicənab, humanist olmağa, təbiətin əvəzsiz töhfələrinin qədrini bilməyə, azərbaycançılıq ideyalarına sadiq qalmağa səsləməsi ilə daha çox müasir, milli və həm də bəşəridir. Yazıçının bu əsəri göstərir ki, o, zamanın zəruri problemlərindən yazmağı daha vacib bilir.

Povestdəki hadisələr Tumaslar və Qanıqlar nəslinə mənsub iki canavar balası – Ayçən və Göysərək ətrafında qurulmuş hadisələr fonunda təcəssüm olunur.

Təsvirin qeyri-adi gözəlliyi, dəqiqliyi və səmimiliyi, bədiilik və cazibədarlığı oxucunu elə ilk səhifələrdən ovsunlayır: *"Həmin gecə Tumaslar və Qanıqlar elə yuvalarının ağzındaca üzlərini aylı-ulduzlu göy qübbəsinə tutub səhərə qədər uladılar – bu həm nisgil və çarəsizlik, həm də intiqam himni idi..."*[9]

İnsanların törətdikləri cinayətə – təbiətə dağıdıcı, amansız, rəhmsiz münasibətə həsr olunan "Cəza" əsərində ana canavarın "intiqam himnini" – aylı-ulduzlu göyə üz tutaraq səhərə qədər ulamasını eynilə təbiətin, Yaradanın cinayətkarlara qarşı "intiqam himni" kimi də başa düşmək olar.

Azərbaycan nəsrində dəyərli ədəbi hadisə kimi qarşılanan "Cəza"nın həyati və bədii əhəmiyyəti şəksizdir. Ekologiyamızın çox pozulduğu indiki dövrdə belə bir əsərin meydana gəlməsi aktual səciyyə daşıyır. Əsərdə hökm sürən emosional və fəlsəfi mühakimələr, baş verən hadisələrə nüfuz etmək qabiliyyəti povestin ən üstün cəhəti kimi təhlil olunur.

**İkinci fəslin "Yeni dövr insanının mənəvi–əxlaqi səciyyəsi: məişət və insan"** adlanan üçüncü paraqrafda H.Mirələmovun həyat, məhəbbət, ölüm, müharibə, mənəviyyat kimi problemlərə həsr olunmuş əsərləri insanın mənəvi dünyasını silkələyən, təbiətlə cəmiyyəti vəhdətdə təqdim edən mətnlər kimi dəyərlidir. "Həyat eşqi" povesti də

---

[8] Əbilov, E. Gecə bənövşələrinin ətri // 525-ci qəzet. – 2015, 4 fevral. – s. 6-7.
[9] Mirələmov, H. Cəza (povest) / H.Mirələmov. – Bakı: Nurlan, – 2007. – s. 19.

bu baxımdan, insanın mənəvi dünyasının, onun iztirab və sarsıntılarının şeiriyyəti, Tanrıya qovuşmaq, əzablardan xilas olub asudəliyə, könül rahatlığına can atmaq kimi xüsusiyyətlərlə yadda qalır. Əsərin qəhrəmanı Müdrik İnsanın həyat və yaşamaq məramıdır, öz orbitinə qayıda bilmək təşəbbüsüdür. Tanrıdan əsas istəyi nəyin bahasına olursa-olsun, mənən dəyişilsin, başqalaşsın, həmişə, hər yerdə bütün canlıların – insanların köməyinə çatsın, içini, varlığını qoruyub saxlasın. Buna görədir ki, o, bir qədər romantik, xəyalpərvər, ümidsiz, məzlum bir məqama düşsə də, yenə də optimist olmaq, güclü bir varlığa çevrilmək iddiasındadır.

Povestin qəhrəmanı Göylərə, Meşələrə heyvanlar arasına və ya uzaqlara – sonsuzluğa getmək arzusunda olsa da, hiss edir ki, əslində, bu, çıxış yolu deyil və ola da bilməz. Yəni H.Mirələmovun Müdriki cəmiyyətdə hökm sürən ədalətsizlikdən, qeyri – insani cəhətlərdən, avamlıq, biganəlik və vəhşilikdən qaçmaq, bir insan kimi özünü məhz insanlıqda tapmaq arzusundadır. "Həyat eşqi"nin baş qəhrəmanı çıxılmaz, dözülməz şəraitlə, daxili – mənəvi puçluqla tək–tənha qaldığından həyatdan, yaşamaqdan bezmiş, usanmışdır. H.Mirələmovun ümidsizliyə qapılan, lakin filosof kimi, müdrik insan kimi düşünən qəhrəmanı yaranmışlardan çox Yaradana inanır, insanlığın kamilliyə qovuşacağına şübhə etmir.

H.Mirələmovun "Həyat eşqi" əsərinə də qanadlı bir romantika hakimdir. Yaşamaq – yaratmaq eşqi, ölüm, səadət, mənəvi ucalıq kimi xüsusiyyətlər əsərdə fəlsəfi, bədii, əlvan bir dillə oxucuya çatdırılır.

"Gəlinlik paltarı" azad insan ruhunun qüdrəti və faciəsi haqqında romandır.Romanda qarışıq nigahdan – azərbaycanlı kişi Qadir və erməni qadın Zinayənin izdivacından doğulmuş 18-19 yaşlı Fənayənin faciəli taleyindən bəhs olunur.Yazıçı bunu sosialist beynəlmiləlçiliyinin tarixi nəticəsi kimi mənalandırır. N.Şəmsizadə əsərlə bağlı yazır ki, *"Əsərin qəhrəmanı Fənayənin taleyi və faciəsi dörd əsas xətt üzrə açılır: Fənayə və ailəsi- atası Qadir və anası Zinayə, Fənayə və Haris, Fənayə və Fədai, Fənayə və rəssam Yusifcan...."*[10]

Əsərdə gəlinlik paltarı milli mentalitet rəmzi kimi mənalanır. Fənayə yeganə qızdır ki, bu paltarı qəfəs adlandırır, ondan imtina edir.

[10] Fənayənin sualları (ədəbi-publisistik məqalələr)/ – Bakı: Səda, – 2006. – s. 149.

Roman təkcə insanı yazmır, həm də dövrün ictimai–siyasi proseslərinə ayna tutmağa çalışır. Yazıçı Fənayə ilə bağlı metafizik məqamlara kimi gedir. Bu məqam xüsusi ilə onun ölüm qabağı hisslərində daha bariz hiss olunur. Həyatın, ətraf mühitin, onu seçən cəmiyyətin murdarlıqlarına dözə bilməyən Fənayə yeganə çıxış yolunu Günəşə can atmaqda görür. Bu, həm də əsərdə işıq rəmzi kimi mənalanır.

Tədqiqat işinin üçüncü fəsli **"Tarixi yaddaşın epik təcəssümü İnsan və Zaman kontekstində"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqraf **"Milli ideal və insan taleyi tarixi yaddaş müstəvisində"** adlanır. Bu paraqrafda deyilir ki, milli ədəbiyyatımızda tarixi yaddaşa xidmət edən əsərlərdə xalqın keçmişini, düşüncəsini, keçdiyi həyat yolunu dərindən öyrənmək meyli daim qabarıq olub. Tarixi yaddaşı işıqlandırarkən yazıçının qarşılaşdığı çətinliklər, bədii təxəyyüllə yaddaşın üst-üstə düşməsi, hər gələn nəsil yazıçıların özünün tarixi yaddaşa münasibətinin formalaşması, mövzuya, problemə orijinal yolla yanaşması kimi məsələlər bədii nəsrin milli kimliyə olan marağından irəli gəlir.

Ağır tarixi–mənəvi itkilər verən, böyük məhrumiyyətlər, qadağalar, çətinliklərə tuş gələn xalqımız həmişə milli ideallarına sadiq qalmağı bacarmışdır. Azərbaycan xalqının milli ideologiyası–türkçülük, islamçılıq və müasirlik üzərində qurulan Azərbaycançılıq məfkurəsi milli xarakterin formalaşmasına, milli birlik, vətənpərvərlik əzminin yüksəlməsinə, milli–əxlaqi dəyərlərin qorunmasına xidmət edir. H.Mirələmovun tarixə müraciəti çoxşaxəliyi ilə seçilir. "Yanan qar" romanında müharibə mövzusunu bədii təcəssümün predmetinə çevirməklə ən yaxın keçmişimizə ayna tutmuş, içindən keçib gəldiyimiz olayları bədiiləşdirmişdir. "Yanan qar" ("Dağlarda atılan güllə") romanı iki kitabdan ibarətdir. Son iyirmi beş ildə baş verən tarixi ədalətsizliyə etiraz nidaları, qan-qadaya, müharibələrə nifrət ifadə edən humanist duyğular əsərin əsas, aparıcı xəttini təşkil edir. Vətəndaş yanğısı, milli ruh, qanlı hadisələrə, erməni xislətinə bəslənilən nifrət motivləri əsərdəki müsbət qəhrəmanların əsas idealıdır. Elə buna görədir ki, "Yanan qar" romanı son illər nəsrimizin dəyərli nümunəsi kimi qiymətləndirilir.

"Yanan qar" romanı Qarabağ müharibəsinin canlı hadisələrinə həsr olunan roman kimi ideya–bədii xüsusiyyətləri ilə çağdaş

ədəbiyyatımızda müstəsna yer tutur. Əsərdə əsas qəhrəmanlardan olan, ermənilərin əsir götürdüyü Süleyman, onun oğlu Bəhruz təsirli bədii boyalarla təsvir olunur: *"... Əsirlər arasında demək olar adam sifətində bir kimsə qalmamışdı, hamısının üz–gözü, üst–başı qana, palçığa bulaşmış biçarə insanlar tanınmaz hala düşmüşdülər. İri müharibələrlə müqayisədə erməni yaraqlılarının qoyduğu qaydalar ağlasığmaz dərəcədə sərt və amansız idi."*[11]

Bu roman H.Mirələmovun yaradıcılığında Qarabağ mövzusunda yazılan əsərlər silsiləsinin davamıdır. Burada müharibənin ağır şəraitində yaşayan insanların psixologiyası sənətkarlıqla qələmə alınmışdır. Ağır müharibə dövrünün xarakteri Bəy Kamranın, onun oğlu Bəxtiyarın, Ötkəmin, Mustafanın, Sədəf qarının, Zakir kişinin, Süleymanın, Xəlilin, Novruzun və s. qəhrəmanların simasında verilmişdir.

Əsər ənənəvi üslubda yazılmışdır və yazıçıya xas olan təhkiyə tərzi, süjetin ayrı–ayrı hadisələr üzrə inkişafı, obrazların hər birinin aydın və dəqiq xarakteristikası bu romanda da bariz şəkildə nəzərə çarpır. Tənqidçi Vaqif Yusifli haqlı olaraq qeyd edir ki, *"Mirələmovun fərdi üslubuna xas olan tarixlə müasirliyi qarşılaşdırmaq cəhdi, digər əsərlərində olduğu kimi, burada da özünü göstərir."* [12]

Azərbaycanın əsas problemi olan Qarabağ faciəsi, torpaq itkisi, vətəndaşlarımızın ev-eşiklərini itirərək köçkün kimi yaşamağa məcbur olmaları, doğma yurdun maddi və mənəvi ağrıları müsbət obrazların, o cümlədən Süleymanın taleyində göstərilmişdir. Müəllif, Süleymanın daxili çırpıntılarını, başına gələn minbir müsibəti, oğlunun, arvadının əzablarını, əsirlikdən çıxış yolları axtarmasını yanıqlı bir dillə təsvir edir. Süleymanın erməni vəhşilikləri barədə düşüncələrini həyəcansız oxumaq olmur: *"Belə müharibə olar? Kəndləri, şəhərləri işğal edib orada yaşamaq istəyirlərsə, onda niyə viranəliyə çevirirlər? Atın, itin nə günahı?*

[11] Mirələmov, H. Yanan qar (roman) / H.Mirələmov. – Bakı: Kür-Araz, – 2007. – s. 17-18.

[12] Yusifli, V. H.Mirələmovun yeni romanı (“Dağlarda atılan güllə”) // Ədalət. – 2005, 1 sentyabr.

*Belə vəhşiliklər olar, İlahi?!"*[13]

Bu sətirlərdə yazıçı humanizminin, milli ruh və vətəndaşlıq yanğısının bədii ifadəsini görməmək mümkün deyildir. "Yanan qar" da elə bir surət yoxdur ki, onun taleyi əsər boyu diqqətdən kənarda qalsın. Xüsusilə Bəy Kamran – timsalında milli xarakterə xas olan bir çox mənəvi dəyərlərin – mərdliyin, xeyirxahlığın, cəsarətin, müdrikliyin, vətənpərvərliyin ümumiləşdirilmiş ifadəsi əks etdirilmişdir. Əsərin əvvəlindən müəllif onu həmişə çiynindən beşatılan asılan və ermənilərə qənim kəsilən mərd bir insan kimi təqdim edir. Yazıçı onun beşatılanını mərdliyin rəmzi kimi dəyərləndirir.

Müəllif bu obrazın xarakterik əlamətlərini təsvir edərkən yazır: *"Dağların qəribliyi, kimsəsizliyi Bəy Kamranı, Allah bilir, neçənci dəfə kövrəltdi. Qismətdən, ya nədən qartallar da gecələr qıy vurmur, səssiz–səmirsiz öz yuvalarında itib–batmışdılar. Dağları qaramat basmışdı, adam üşənirdi."*[14]

Roman boyu oxucuya tam aydın olur ki, ermənilərin məqsədi azərbaycanlıları tarixi ata–baba yurdundan çıxarmaq, bu ərazilərdə onların ideoloqlarının uydurduqları "böyük Ermənistan" dövləti yaratmaqdır. Müəllif sərsəm erməni tarixçilərinin təkidi ilə genosid siyasətinin davamı kimi qanlı hadisələrin törədilməsini, haqlı olaraq, onların bütün dünyaya səpələnən lobbilərinin ayağına yazır.

Müəllif bu cür epizodlarda Qarabağda cərəyan edən qanlı hadisələri, erməni quldurlarının dinc yerli sakinləri qırmasını, əsirlərə olmazın işgəncələr verməsini, şəhər, qəsəbə və kəndlərimizi viran qoymasını oxucunun nəzərində canlandırır.

Əsərdə təbiətin bir çox möcüzəli məqamları, qeyri–adi gözəlliyi, bəzən isə şıltaqlığı, qəzəbi romantik üslubla, cazibədar bir dillə təsvir olunur.

Əsərdə ölüm səhnələri xeyli yer tutsa da, oxucuda qətiyyən bədbinlik yaratmır. Oxucu inanır ki, bəzi məğlubiyyət səhnələri, qışın, yazın müharibə ilə bağlı acı günləri, adamların minbir müsibətlə üzləşməsi, güllələnməsi, Bənək itin, Səmənd atın həlak

---

[13] Mirələmov, H. Yanan qar (roman) / H.Mirələmov. – Bakı: Kür-Araz, – 2007. – s. 61.

[14] Mirələmov, H. Yanan qar (roman) / H.Mirələmov. – Bakı: Kür-Araz, – 2007. – s. 72.

olması və s. hadisələr nə qədər sarsıdıcı olsa da, ümidsizliyə aparıb çıxarmır. İnsanların milli–mənəvi ruhu, vətən, torpaq eşqi, nurlu gələcəyə inam hissi bu paraqrafda öz əksini tapmışdır.

Bu fəslin ikinci paraqrafı **"Hüseynbala Mirələmovun nəsrində tarixiliklə müasirliyin vəhdəti"** adlanır. Burada tarixi yaddaşı epik fakta çevirmək, baş verən hadisələri fərdilikdən çıxararaq ona sosial, milli məzmun vermək, keçmişlə bu günü milli vəhdətdə saxlamaq yazıçının üzərinə düşür. Hər şey yazıçının milli tarixi yaddaşı milli bədii yaddaşa çevirməsindən asılı olur. Çünki tarixi yaddaş getdikcə yaddan çıxa, unudula bilər, lakin o bədii yaddaşa çevrildikdən sonra yenidən dövriyyəyə daxil olur, ona yeni həyat verilir. Nəticədə tarixdən bizə tarix elmində olduğu kimi, yalnız quru faktlar, rəqəmlər, məlum hadisələr deyil, həm də bu hadisələrin xalqın milli – mənəvi varlığını təmsil edən canlı iştirakçıları boylanır. Keçmişə müraciət bütün zamanlarda öz aktuallığını qoruyub saxlayır. Çünki yaddaşda xalqın milli, mənəvi, iqtisadi həyatı, taleyi öz əksini tapır.

H.Mirələmovun nəsrində tarixi mövzunu önə çəkən istiqamət onun əksər romanlarının başlıca predmeti olsa da, bütünlükdə üç əsər tarixə baxışın monumentallığı ilə seçilir. "Sonuncu Fateh", "Od və büt" və "İki şah, iki sultan" romanları. "Od və büt" də peyğəmbərlər, "Sonuncu Fateh", "İki şah, iki sultan"da isə Orta əsrlər dövrünü təsvirə çəkmişdir.

Hüseynbala Mirələmovun qələmə aldığı "Sonuncu Fateh" romanı XVIII əsrdə dünyanın ən görkəmli sərkərdələrindən biri, Orta Şərqin və Asiyanın sonuncu fatehi sayılan, türk cahangiri Nadir şah Əfşar haqqındadır. Onun həyatı, siyasi gücü əsərdə uğurlu şəkildə əksini tapmışdır.

Tarixi faktlar və real hadisələrlə yazıçı təfəkkürünün birgə məhsulu olan romanda Nadir şahla yanaşı xeyli sayda tarixi şəxsiyyətlər qalereyası yer alır ki, bu da dövrün ab–havasının çoxşaxəli təsvirinə zəmin yaratmış olur.

Ədib bir tərəfdən tarixin bəlli bir dövründən əsər yazır, digər tərəfdən yaxşı öyrəndiyi həmin dövrün ədəbi–mənəvi reallığının qorunmasına təəssübkeşlik edir.

H.Mirələmov Nadir şahı ağıllı, uzaqgörən sərkərdə kimi təsvir

etməklə yanaşı, məzhəb ixtilaflarını aradan qaldırmaq niyyətli şəxs olaraq da fəaliyyətini önə çəkir. Lakin əsərdən məlum olur ki, əsrlərdən bəri müsəlmanlar arasında hökm sürən məzhəb ayrıseçkiliyini aradan qaldırmaq o qədər də asan məsələ deyil. Necə ki, bu, bir Fatehə – Nadir şaha öz həyatını itirmək bahasına başa gəlir.

Bir-birindən uzaq məkan və zaman paralelləri, müxtəlif insan taleləri, gerçəkliklə xəyal arasındakı sərhədlərin ən incə detallarına qədər qorunub saxlanması, bir-birindən uzaq süjet şaxələrini cilalayıb bir axara salmağa nail olmaq "Sonuncu Fateh" əsərinin başlıca uğurunu təmin edən xüsusiyyətdir.

Peyğəmbərlər, onların dövrü, həyatı ilə bağlı əsərlər silsiləsində H.Mirələmovun "Azərbaycan" jurnalında çap olunan "Od və büt" romanı bu baxımdan geniş önəm kəsb edir.

*"H.Mirələmov burada bütpərəst ailəsində böyüsə də qəlbində tək olan Allahın varlığını dərk edən və bu yolda bir çox çətinliklərlə üzləşən İbrahim peyğəmbərin timsalında inancın insana verdiyi qüdrəti, cəsarəti təbliğ etmək məqsədi daşımışdır."*[15]

Tarixdə Lut peyğəmbərlə bağlı rəvayət, bütpərəstliyin hakim olduğu zamanın, mənəvi–əxlaqi aşınmanın baş alıb getdiyi dövrün real cizgiləri var.

"Od və büt"ün mövzusu Lut peyğəmbərlə bağlı tarixi faktları mətnə gətirmək olsa da, mövzuya daha çox sərbəst yanaşılmış, tarixdən bizə məlum olan bir çox hadisə və obrazlar, epizodlar bədii təxəyyül vasitəsilə təqdim olunmuşdur.

Roman bir neçə bədii materialı içində gizləyir: İbrahim peyğəmbərin öz əqidəsi uğrunda çarpışmasını, Allahın yolundan azdığı üçün lənətlənmiş Sədun torpağı sakinlərinin aqibətini, Lut peyğəmbərin mənəvi yaşantılarını, Nəmrud zülmünün hüdudlarını, Əyal, Sara xətti hər biri romana ayrıca səciyyə qazandırmışdır.

Romanda yaradılan ən dolğun surətlərdən biri Əyaldır. Başqa ölkədən əsir gətirilib saray divarları arasında mənəvi dünyası paramparça olan Əyalın vəfası, təmiz dünyası əsərdə incə çalarla təsvir olunmuşdur.

N.Cahangirova qeyd edir*: "Müxtəlif tarixi–əfsanəvi motivlər əsərə olduğu kimi əlavə edilsə də müəllif təxəyyülünü işə salaraq*

---

[15] Cahangirova, N. "Od və büt romanı" – ilahi işığın qələbəsi // – Bakı: Azərbaycan, – 2016. № 6, – s. 123.

*müxtəlif epizodlarla əsəri zənginləşdirməyə və maraqlı bədii materiala çevirməyə müvəffəq olmuşdur."*[16]

Zaman və məkan keçidləri mütəhərrik xarakter daşıyır. Müəllif əsər boyu gah Nəmrudun sarayı və orda baş verənləri, gah Lutun həyəcan və tərəddüdlərini, gah da İbrahim peyğəmbərin əqidəsi uğrunda savaşını, onun köç zamanı yolda qarşılaşdığı çətinlikləri bədii təcəssümün predmetinə çevirir.

*"Sənədlərə arxalanmaq tarixi romanın təbiətini başa düşmək üçün həqiqətən çox şey verir."*[17] Hüseynbala Mirələmov sənədlərlə işləyən, işlədiyi mövzuya dair mövcud əsər və tədqiqatların məğzinə varmağa çalışan yazıçıdır.

"İki şah, iki sultan" romanı Uzun Həsənin şahlıq dövrünü, mürəkkəbliklərlə zəngin saray həyatını mətnə gətirən bir əsərdir.

Əsər Sara xatunun oğulları – Uzun Həsənlə qardaşı Cahangir Mirzə arasındakı ədavətin aradan qalxması naminə söylənən hekayətlər üzərində qurulmuşdur.

Romanda Qazi Bürhanəddinin şair kimi deyil, hökmdar kimi xarakteri yaradılmışdır. Qazi istedadlı, dövləti ağılla idarə edən hökmdardır. Amma insanları tanımaqda bəzən yanlışa yol verməsi, Baş Əyan kimi yaltaq, təhlükəli bir insanı özünə yaxın etməsi onun gələcək faciəsinin əsası olur.

Romanda uğurla canlandırılan xarakterik obrazlardan biri Sara Xatundur. H.Mirələmov bu qadının simasında həm övladlarını dərin məhəbbətlə sevən, onlar üçün təlaş keçirən Ana obrazını, vətənin müqəddəsliyini, onun ərazi bütövlüyünün sabitliyini hər şeydən uca tutan idarəedici, Rəhbər obrazını yaratmağa müvəffəq olmuşdur.

*"Bir ana kimi Sara Xatun hər üç oğlunu dərin məhəbbətlə sevirdi. Qəlbində hərəsinin öz yeri vardı. Ancaq bəylik ənənələrini qorumaqda, ölkəni idarə etməkdə təkcə analıq hissi kara gəlmirdi."*[18]

---

[16] Cahangirova, N. "Od və büt romanı" – ilahi işığın qələbəsi // – Bakı: Azərbaycan, – 2016. № 6, – s. 122.

[17] Оскоцкий, В.Д. Роман и история (Традиции и новаторство советского исторического романа) / В.Д.Оскоцкий. – Москва: Художественная литература, – 1980. – с. 35.

[18] Mirələmov, H. İki sah, iki sultan (Qazi Bürhanəddin səltənətinin süqutu)// – Bakı: Azərbaycan, – 2017. №5, – s. 65.

Bu paraqrafda tarixi yaddaşa dönüş xalqın dəyərlərinin qorunması, yaşanması və digər məqamlar geniş şərhini tapmışdır.

Tədqiqat işinin **Nəticə** hissəsində əsas – elmi qənaətlər öz əksini tapmışdır. Belə ki, H.Mirələmovun nəsri onu bir neçə kontekstdən təhlilə cəlb etməyi labüdləşdirir: ailə məişət mühiti və qəhrəman; çağdaş sosial – siyasi həyat və qəhrəman; tarixi–siyasi mühit və qəhrəman. Yazıçının nəsrində insan və zaman problemi bir neçə kontekstdən araşdırılır: insan və cəmiyyət; insan və təbiət; insan və müharibə və insan və tarix və s. Tədqiqat, təhlil və müşahidələr, məhz bu baxımdan bir sıra nəticələrə gəlməyə imkan verir:

1. 60-cı illərdən sonra ədəbi fikirdə əhatəlilik qazanan insan amili, onun hiss və düşüncələri artıq imkanlarını realizə etməyə, yaşantıları ilə birgə mətnlərə gətirilməyə başladı. Hüseynbala Mirələmovun da yaradıcılığında milli faciə süjeti daha çox psixoloji xarakter alır, ictimai mühitin, şəxsiyyətin, vətəndaşın daxili təsvir süjeti ön plana keçirdi.

2. H.Mirələmov hələ ilk hekayələrini yazdığı 60-cı illərdə insanı əsərin mərkəzinə qoyub onların həyat tərzi ilə bağlı, kiçik detalların da böyük mənalar daşıya biləcəyini göstərir. Hekayələrində mənəvi – əxlaqi çağırış ruhu güclüdür və öz sosial problematikası ilə bu gün də əhəmiyyətini itirməyib.

3. 90-cı illərdən sonra meydana çıxan nümunələr də ilk növbədə, boşluqları aradan qaldırmaq yönündə atılan addımlar idi. Yazıçının meydanda olan çoxsaylı hekayələrindən tutmuş povest və romanlarına qədər bütün əsərləri ilə tanışlıq onlardakı obyektivin yalnız bir istiqamətə – cəmiyyət həyatının neqativlərinə fokuslandığını bəlli edir.

4. Onun milli – azadlıq hərəkatına, Qarabağ münaqişəsinə, təbiət və cəmiyyət həyatı ilə bağlı problemlərə yazıçı baxışını əks etdirmək, dəyişən dəyərlər mühitində qəhrəmanın bəşəri dəyərləri qoruyub – hifz etmək mövqeyini ifadə etmək xüsusiyyəti eləcə də Qarabağ savaşının fəsadlarını, tarixi şəxsiyyətlərimizin həyatını, təbiətə, cəmiyyətə yadlaşan insanın obrazını ədəbi sözün predmetinə çevirməyə çalışdı. "Xəcalət" povesti milli mentalitetimizin bütün çalarlarını, türkçülük əxlaqını və psixologiyasını özündə əks etdirən əsərlərdən biri olaraq həm H.Mirələmovun yaradıcılığı və milli nəsrimizin təşkili baxımından uğurlu əsərdir.

5. Bu dövr ədəbiyyatın başlıca mövzusu müharibə oldu. Şəhid obrazı ədəbiyyatın başlıca obrazı kimi gerçəkləşdi.

6. Milli kökə qayıdış və torpaq, Vətən ideyasını, türkçülük, islamçılıq motivlərini, yüksək əxlaqi dəyərləri bədii həqiqətə çevirmək cəhətdən onun "Cəza", "Gəlinlik paltarı", "Vicdanın hökmü" kimi əsərlərinin geniş oxucu kütləsinə təsir dairəsini etiraf etməmək mümkün deyil.

7. H.Mirələmovun nəsri daha çox XX əsr ziddiyyətlərini özündə əhatə edir. Onun əsərlərinin əksəriyyəti müasir həyat məsələlərindən bəhs edən mətnlərdir.

8. Mirələmov başlıca olaraq, müharibənin, zülm və zorakılığın əleyhinə çıxır. Qadın hüquqlarının qorunması, qadına münasibətdə cəmiyyətdə hökm sürən məişət özbaşnalıqlarını kəskin pisləyir. Tarix yaratmış şəxsiyyətlərin ömür bioqrafiyalarını nəsrə gətirməklə xalqın milli genefondunun dəyərli qatlarının səlnaməsini yaratmağa müvəffəq olur.

9. "Yanan qar" romanında müharibə mövzusunu bədii təcəssümün predmetinə çevirməklə ən yaxın keçmişimizə ayna tutmuş, içindən keçib gəldiyimiz hadisələri bədiiləşdirmişsə, digər üç romanında – "Od və büt"də peyğəmbərlər, "Sonuncu Fateh", "İki şah, iki sultan"da isə orta əsərlər dövrünü təsvirə çəkmişdir.

Bütün əsərlərdə yazıçı mövqeyinin ifadəçisi kimi sərgilənən insan və əxlaq, insan və mənəvi təmizlik məsələləri ön sıradadır. Elə bu məziyyətlərlə də Hüseynbala Mirələmov yeni dövrün yazıçısı olmaq statusunu daşıya bilir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU AŞAĞIDAKI ELMİ NƏŞRLƏRDƏ ÖZ ƏKSİNİ TAPMIŞDIR:


1. Hüseynbala Mirələmov yaradıcılığında tarixiliklə müasirliyin vəhdəti // – Bakı: Bakı Dövlət Universiteti. Dil və Ədəbiyyat, – 2016. – s. 218-220.
2. Hüseynbala Mirələmov yaradıcılığında müharibə fəlakətlərinin təsviri // – Bakı: Filologiya məsələləri, – 2016. – s. 337-341.
3. Hüseynbala Mirələmov yaradıcılığında Qarabağ mövzusu // –Bakı:

Bakı Dövlət Universiteti. Dil və Ədəbiyyat, – 2017. – s. 259-262.

4. Hüseynbala Mirələmov nəsrində cəmiyyətdə gedən ictimai-mənəvi proseslərin bədii əksi // – Bakı: Filologiya məsələləri, – 2017. – s. 472-480.
5. Hüseynbala Mirələmovun “Gəlinlik paltarı” povestində insan ruhunun əzəmət və faciəsi // – Bakı: Bakı Dövlət Universiteti. Dil və Ədəbiyyat, – 2017. – s. 222-225.
6. Человек в контексте общественной среды в творчестве Гусейнбала Мираламова // – Киев: Киевский национальный университет имени Тараса Шевченко. Язык и культура, – 2017. – с. 78-85.
7. Художественное отображение действительности в рассказах Гусейнбалы Мираламова // – Киев: Литератури Світу: Поетика, Ментальніст І Духовність, – 2017. – с.50-60.
8. Çağdaş Azərbaycan nəsrində milli-mənəvi dəyərlərin təzahür formaları (Hüseynbala Mirələmovun hekayə yaradıcılığı əsasında) // Azərbaycan Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş Folklor və Dövlətçilik mövzusunda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Folklor İnstitutunun birgə keçirdiyi III Respublika Elmi Konfransının Materialları. – Bakı: – 13 noyabr, – 2018, – s. 372-383.
9. Hüseynbala Miralamov'un sanatsal düzgüsü ve tarihi hafızaya epik izlenimi // Uluslararası Türkoloji Kongresi Arayışlar ve Yönelimler. – Karabük: – 16-18 mayıs, – 2022, – s. 137-140.
10. Hüseynbala Mirələmovun tarixi romanlarında tarixilik və bədii təxəyyül // 5-ci Beynəlxalq elm və təhsildə innovativ texnologiyalar konfransı, Azərbaycan Dövlət Pedaqoji Universiteti. – Şamaxı: – 24-25 may, – 2022, – s.216-219.





26

Dissertasiyanın müdafiəsi ___10___ yanvar 2025-ci il tarixində saat 14⁰⁰-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001, Bakı şəh., İstiqlaliyyət küçəsi 53. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __02__ ___dekabr___ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.11.2024

Kağızın formatı: A5

Həcm:41 290

Tiraj: 100